

# Bir qəlbin nuru...

Cəbrayıl rayonunun Qovşutlu kəndinin təbiəti ilin hər fəslində gözəldir. Qışda dağların qarlı örpəyi, baharda gül-çiçəkli çəmənləri, yayda çayların, sərin bulaqların nəğməsi, payızda budaqdan-budağa qonan quşların cəh-cəhi, səmada qanad çalan qartalların səsi adamı valeh edir... O, bu kənddə doğulub, dünyaya göz açıb. Atası Arif Adıgözəlov bu kəndin ilk ali təhsilli müəllimi olub. O, öz vəsaiti hesabına məktəb binası tikdirib və uzun illər bu məktəbin direktoru işləyib. Qızı Kəmalə Əliyeva kənd məktəbində oxuyanda əlaçı olub. Bu, atanı çox sevindirib və ona öz tövsiyəsini verib: -Qızım, müəllimlərin səndən çox razıdır. Bu, məni sevindirir. Bu il məktəbi bitirirsən, inanıram ki, ali məktəbə qəbul olunacaqsan. Bilirsən ki, məktəbimizdə müəllimə böyük ehtiyac var. Azərbaycan dili və ədəbiyyatı müəllimi də yoxdur. Bu dərsi qonşu kənddən gələn müəllim deyir. İstəyirəm, bu ixtisas üzrə təhsil alasan. Müəllim zehinlərə nur saçır. O xalq xoşbəxtdir ki, ölkəsi qüdrətlidir, əhalisi savadlıdır. Ziyalısı, alimi də ki çoxdur. Bunun bünövrəsi isə orta məktəbdən qoyulur.

Atasının dedikləri Kəmalənin ürəyindən oldu: -Ata, elə mən də müəllimliyi bütün peşələrdən üstün tuturam. Həkimi, mühəndisi, hansı peşəni götürsən, onu da müəllim yetişdirmirmi?! Belə düşünürəm ki, müəllim olmaq daha vacibdir.

Kəmalə Əliyeva kənd orta məktəbini bitirib, sənədlərini H.Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutuna verdi və Azərbaycan dili və ədəbiyyat fakültəsinə qəbul olundu. Təhsilini başa çatdırdıqdan sonra 1985-ci ildə doğma kəndi Qovşutlu kənd məktəbinə Azərbaycan dili və ədəbiyyat müəllimi göndərildi. Gənc müəllim doğma ana dilini şagirdlərə həvəslə öyrədirdi. Hər bir şagirdin dərslərini yaxşı oxumasına, tərbiyəli olmasına diqqət yetirir, bu məqsədlə onlarla söhbət aparır, qəlblərinə yol tapmağa çalışırdı. Şagirdlərdən biri özünü sinifdə yaxşı aparmırdı, qızlarla dalaşırdı. Həmin oğlanla səmimi danışdı:- oğlum, səndən müəllimlər, şagirdlər də narazılıq edirlər. 3 gündür dərsə gəlmirsən. Mən göz qoyuram, özünü yaxşı aparmırsan, qızlarla rəftarında təhqiramiz sözlər işlədirsən. Dərslərinə hazırlıqsız gəlirsən. Eşitmişəm ki, ictimai yerlərdə də davranışına fikir vermirsən. Axı, sənin bu cür hərəkətlərin məktəbliyə yaraşmır. İki ildən sonra məktəbi bitirib müstəqil həyata atılacaqsan. Bir sənət sahibi olmaq, xalqa, vətənə fayda vermək hər bir gəncin borcudur. Bunun üçün isə yaxşı oxumaq, tərbiyəli olmaq vacibdir. Sözlərimi unutma!

Kəmalənin hər şagirdə belə fərdi yanaşması, məsləhət verməsi öz müsbət nəticəsini verirdi. Kənd orta məktəbini bitirib ali məktəblərə qəbul olunanların sayı əvvəlki illərlə müqayisədə artırdı. O, 1990-cı ilədək məktəbin pedaqoji kollektivi ilə birgə təhsil sahəsində uğurların artırılması naminə səy və bacarığını əsirgəmədi.

Kəmalə Əliyeva 1990-2004-cü illərdə S.C.Pişəvəri adına fars dili təmayüllü Respublika internat məktəbində Azərbaycan dili və ədəbiyyat fənnini tədris etdi. Təhsil ocağında savadı, şagirdlərə tədris etdiyi fənni sevdirməsi ilə kollektivin hörmət və nüfuzunu qazandı. O, 2004-cü ildən Bakı şəhərinin Badamdar qəsəbəsindəki 236 saylı məktəbdə çalışır. Azərbaycan dili və ədəbiyyatı müəllimidir. Bu tədris müəssisələrində o, qabaqcıl, təcrübəli pedaqoq kimi tanınır. Müəllim adından qürur duyur, şagirdlərin dərin bilik alması, gənc müəllimlərə məsləhət verməsi, təcrübələrini artırması qayğısına qalır.

Bir dəfə o, gənc bir müəllimin dərs dediyi sinifdə arxa partada oturub, onun fənni necə tədris etməsini izləyirdi. Dərsdən sonra onunla dərsin təhlili ilə bağlı söhbət etdi. Qızım, dedi, dərsə yaxşı hazırlaşmısan. Lakin yeni mövzunu təmkinlə deyil, tələsik izah edirsən. Bir də əyani vasitələrdən istifadə olunmur. Şagirdlərlə apardığın sual-cavab da məni qane etmədi. Müəllim çalışmalıdır ki, hər bir sual şagirdi düşündürsün, ona aydın cavab verməyi bacarsın. Onda uşaqlar keçdiyin mövzunu elə sinifdəcə öyrənəcəklər.

Gənc müəllim Kəmalə Əliyevanın məsləhətlərini öz işində əsas götürdü, mövzunun izahında bütün incəliklərə fikir verdi. Hazırda onun da adı fənnini yaxşı tədris edən müəllimlər sırasında çəkilir.

Kəmalə Əliyevanın 35 illik pedaqoji stajı var. Onu təkcə Azərbaycan dili və ədəbiyyat fənnini tədris edən təcrübəli müəllim deyil, həm də müəllimlərin müəllimi adlandırmaq doğru olar. Çünki o, qəzet və jurnallarda dərc etdirdiyi məqalələri ilə müəllimlərə dəyərli bilgi, tövsiyələr verir. Onun "Elm və təhsil" nəşriyyatının nəşr etdiyi "Filologiya məsələləri" toplusunda "Təsirlilik və növ kateqoriyalarının cümlənin struktur semantik formalaşmasında rolu", "Dil və Ədəbiyyat Beynəlxalq elmi-nəzəri jurnal"da "Müasir Azərbaycan dilində cümlə üzvü məsələsi", "Məktəbdaxili rəhbərlik və nəzarət eyni məktəb modeli", "Azərbaycan dili: dünən və bu gün" mövzusunda keçirilən Beynəlxalq elmi konfransın materiallarında "Qeyri-müəyyən halların üzvlənməsi" kimi sanballı mövzularda məqalələri dərc edilib.

Kəmalə müəllim öz üzərində daim çalışır, qabaqcıl tədris metodlarına bələd olur, onların tədrisi zamanı tətbiqinə xüsusi əhəmiyyət verir. O, "Azərbaycan dili və ədəbiyyat fənn ayrılığını metodiki tövsiyə nominasiyası" kursunda iştirak edib, yaxşı fəaliyyətinə görə II yerə layiq görülüb və fəxri fərmanla təltif edilib. UNİCEF və Xəzər Universitetinin 2014-cü il noyabr və 2015-ci ilin mart aylarında peşə fəaliyyətinin ümumi əsasları modulu üzrə təşkil etdiyi "Potensial məktəb direktorları təlimi" kursunda iştirak edib. XXI əsr Beynəlxalq Təhsil və İnnovasiya Mərkəzi MMC tərəfindən keçirilən "Ümumi orta təhsil səviyyəsində yeni fənn kurikulumlarının tətbiqi" adlı təlimdə fəal iştirak etdiyinə görə ona sertifikat verilib. Azərbaycan dili və ədəbiyyat fənn kurikulumunun tətbiqi ilə əlaqədar Bakı şəhərində keçirilən "Öyrədənlərin öyrədəni" kursunu müvəffəqiyyətlə bitirib və "Təlimçi" statusu adını alıb. TQDK tərəfindən keçirilən dərsliklərin müzakirələrində də fəal iştirak edib. Onun dərsliklərin nəşrində buraxılan nöqsanların aradan qaldırılması və test imtahan sualları barədə təkliflərindən istifadə olunub.

Ulu öndər Heydər Əliyev demişdir: "Təhsil millətin gələcəyidir". Bu müdrik kəlamı Kəmalə müəllim öz işində əsas götürüb. Düşünüb ki, müəllim daim savadını artırmalı, elmi biliklərə daha ətraflı yiyələnməyi qarşısına məqsəd qoymalıdır. Buna görə də o, Xəzər Universitetinin idarəetmə kursunu bitirib, hazırda BDU-nun doktoranturasının III kursunda Azərbaycan dili üzrə təhsil alır.

May ayının 7-də Bakı Slavyan Universitetində ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilən konfrans keçirilib. Konfransda Türkiyənin, Moskvanın, Ukraynanın, Belarusun və digər ölkələrin ali məktəblərinin prorektorları və alimləri iştirak ediblər. Bu beynəlxalq elmi konfransda Kəmalə Əliyeva "Heydər Əliyev və Azərbaycan dili" mövzusunda məruzə edib. Universitetin rektoru, professor N.M.Əliyevanın imzası ilə dərin məzmunlu məruzəsinə görə ona sertifikat təqdim olunub.

Kəmalə Əliyeva üç övlad anasıdır. Qızı Lalə Əliyeva Azərbaycan Dövlət Tibb Universitetini fərqlənmə diplomu ilə bitirib. Hazırda Türkiyə Respublikasının İstanbul Tibb Universitetində Uzmanlıq üzrə təhsil alır. Oğlu Altun Əliyev Azərbaycan Dövlət İqtisad Universitetinin Maliyyə fakültəsini bitirib. Əsgəri xidmətdə olub. Hazırda Bakı şəhərində bankların birində çalışır. Üçüncü övladı Altay Əliyev Azərbaycan Dövlət Tibb Universitetinin müalicə ixtisası üzrə beşinci kursunda oxuyur.

Onu da qeyd edək ki, Kəmalə Əliyeva təşkilatçılıq bacarığına malik şəxsdir. Məktəbdə bir çox elmi konfranslar, şagirdlərin estetik tərbiyəsi ilə bağlı yığıncaqlar, poeziya günü və digər maraqlı tədbirlər təşkil olunur. Disputlara geniş yer verilir. "Mənəvi gözəllik və əxlaqlı olmaq", "Əmək insana şöhrət gətirir", "Vətən sevgisi nə deməkdir?", "Milli qəhrəmanlarımız gənclərə örnəkdir" və başqa mövzularda söhbətlər və disputlar keçirilib. Kəmalə müəllim bütün bu tədbirlərin təşkilində yaxından iştirak edir.

Kəmalə Əliyeva Yeni Azərbaycan Partiyasının məktəb ilk partiya təşkilatının fəal üzvüdür. Bu təşkilatın tədbirlərində, əhali arasında aparılan izahat işlərində də yaxından iştirak edir. Onun ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilən "Azərbaycançılığın aktual problemləri" mövzusunda məruzəsi çox maraqla qarşılanıb.

Biz 35 il gənc nəslin təlim-tərbiyəsi ilə yorulmadan, qəlbinin hərarəti ilə məşğul olan və bundan qürur duyan Kəmalə Əliyevanın ömür yoluna qısa nəzər saldıq. Halbuki, onun mənalı həyatı, gördüyü işlər, şagirdlərini sabaha hazırlaması heç də bir məqaləyə sığan deyil. Axı, o, şagirdlərinə dünya dilləri içərisində özünəməxsusluğu ilə seçilən Azərbaycan dilini öyrədir. Onlarda Azərbaycan ədəbiyyatına - Xaqani, Nizami, Füzuli irsinə böyük məhəbbət hissi aşılamaq üçün bütün imkanlarından bacarıqla istifadə edir. İnamla demək olar ki, onun qəlbinin nuru yüzlərlə gəncin zehninə işıq saçıb. Kəmalə müəllimə xeyirxah və nəcib əməlində yeni-yeni uğurlar arzulayırıq.

**Arif HƏBİBOV,**
**Əməkdar jurnalist.**